**İstehsalat təcrübəsinin təşkil edilməsi barədə**

**MÜQAVİLƏ № 28**

**Naxçıvan şəhəri** **"31" yanvar 2024-cü il**

Bu Müqavilə bir tərəfdən Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Naxçıvan Dövlət Universitetinin (bundan sonra – Universitet) Tədris və tərbiyə işləri üzrə prorektoru, dosent Rəhimov Rafiq Vilayət oğlunun şəxsində təmsil olunan Universitet, digər tərəfdən isə Naxçıvan Muxtar Respublikası Səhiyyə nazirinin aparat rəhbəri Məmmədov Vüsal Ələkbər oğlunun şəxsində təmsil olunan Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi (bundan sonra – Nazirlik) arasında (bundan sonra birlikdə Tərəflər adlandırılacaq) aşağıdakı şərtlərlə bağlanır:

## 1. Müqavilənin predmeti

Bu Müqaviləyə əsasən "Tərəflər" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 sentyabr tarixli 221 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali (orta ixtisas) təhsili müəssisələri tələbələrinin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında Əsasnamə"yə uyğun olaraq Universitetdə təhsil alan tələbələrin (rezidentlər istisna olmaqla) istehsalat təcrübələrini təşkil etməyi öhdələrinə götürürlər.

## 2. Tərəflərin vəzifələri

2.1. Nazirliyin vəzifələri aşağıdakılardır:

2.1.1. razılaşdırılmış təcrübə proqramına əsasən tələbələrin 2023-2024-cü il tədris ilində istehsalat təcrübəsi keçmələri üçün şərait yaradır;

2.1.2. tələbələrin təcrübəsini təşkil edir və keçirir;

2.1.3. kifayət qədər təcrübəsi olan işçilər arasından təcrübə rəhbərini təyin edir;

2.1.4. tələbələrə təcrübə proqramı əsasında təcrübə yerlərini müəyyən edir;

2.1.5. tələbələrin texniki sənədlərdən və ədəbiyyatdan, kompüter və çoxaldıcı texnikadan istifadəsinə imkan yaradır;

2.1.6. tələbələri əmək mühafizəsi və təhlükəsizlik, müəssisənin daxili nizam-intizam qaydaları üzrə müvafiq təlimatlarla təmin edir;

2.1.7. təcrübə keçən tələbələri (rezidentlər istisna olmaqla) qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, vakansiya olduqda, müvafiq vəzifələrə təyin edə bilir;

2.1.8. təcrübə müddətində istehsalat müəssisəsinin təqsiri üzündən baş verə biləcək bədbəxt hadisələrə cavabdehlik daşıyır;

2.1.9. Nazirlik tərəfindən təyin olunan təcrübə rəhbəri:

2.1.9.1. təcrübə keçən tələbələrin davamiyyətinə, müvafiq proqram üzrə təcrübənin aparılmasına nəzarət edir;

2.1.9.2. təcrübə keçən tələbələri, müəssisənin müvafiq bölmələrində istehsalat təcrübəsi proqramına uyğun sənədlərlə (məxfi sənədlər və məlumatlar istisna olmaqla) tanış olmalarına və zəruri texniki avadanlıqlardan istifadə etmələrinə şərait yaradır;

2.1.9.3. tələbələri müəssisənin ictimai-siyasi həyatına və elmi-tədqiqat işlərinə cəlb edir;

2.1.9.4. müəssisə ilə razılaşdırılmış davamiyyət qrafiki əsasında Universitet tərəfindən təyin edilmiş təcrübə rəhbərinin tələbələrə təcrübə proqramına uyğun metodik göstərişlər vermələrinə şərait yaradır;

2.1.9.5. istehsalat təcrübəsi başa çatdıqdan sonra hər bir tələbə üçün xasiyyətnamənin yazılıb, imzalanmasını təşkil edir və tələbələrin təcrübə dövründəki fəaliyyətlərinin qiymətləndirilməsində iştirak edir.

2.2. Universitetin vəzifələri aşağıdakılardır:

2.2.1. 2023-2024-cü il tədris ilinə Nazirliklə müqavilə bağlayır, istehsalat təcrübəsinin proqram və qrafikini onlarla razılaşdırır;

2.2.2. təcrübə bazasının profilini nəzərə almaqla, ixtisası uyğun gələn və kifayət qədər iş təcrübəsi olan professor-müəllim heyəti sırasından təcrübə rəhbəri təyin edir;

2.2.3. Nazirliyi, eləcə də tələbələri müvafiq proqramlarla təmin edir;

2.2.4. təcrübənin müəyyən olunmuş müddətdə keçirilməsinə və məzmununa nəzarət edir;

2.2.5. zəruri hallarda təcrübəyə göndərilən tələbələrin tibbi müayinədən keçməsini təşkil edir;

2.2.6. təcrübə proqramının yerinə yetirilməsi barədə hesabatların verilməsini təşkil edir.

2.2.7. Universitet tərəfindən təyin olunan təcrübə rəhbəri:

2.2.7.1. Nazirlik tərəfindən təyin olunan təcrübə rəhbərilə birlikdə təcrübənin keçirilməsinə dair işçi proqramını hazırlayır;

2.2.7.2. tələbələrin əmək mühafizəsi və təhlükəsizlik texnikası qaydalarına riayət etmələrinə cavabdehlik daşıyır;

2.2.7.3. tələbələrə fərdi tapşırıqların, təcrübə mövzularının müəyyənləşdirilməsində və onların iş yerlərinə təhkim olunmasında iştirak edir;

2.2.7.4. tələbələrə fərdi tapşırıqların yerinə yetirilməsində metodiki yardım göstərir;

2.2.7.5. tələbələrə təcrübə proqramının yerinə yetirilməsi barədə hesabat tərtib edilməsində metodiki yardım göstərir;

2.2.7.6. təcrübə proqramının yerinə yetirilməsi üzrə nəticələri Universitet tərəfindən müəyyənləşdirilmiş formada qiymətləndirir.

## 3. Yekun müddəalar

3.1. Nazirliyin normal iş fəaliyyətinə bu və ya digər formada maneçilik törədən tələbələr təcrübədən xaric edilir və bu haqda Universitetə məlumat verilir.

3.2. Təcrübə müddətində Nazirlik tərəfindən tələbələrə heç bir ödəniş (əməkhaqqı) ödənilmir. Eləcə də Nazirlik tərəfindən təyin olunan təcrübə rəhbərinə Universitet tərəfindən heç bir ödəniş (əməkhaqqı) ödənilmir.

3.3. Bu Müqavilə üzrə tərəflər arasında meydana çıxan məsələlər danışıqlar yolu ilə həll olunur.

3.4. Bu Müqavilə Azərbaycan dilində, eyni hüquqi qüvvəyə malik olan iki nüsxədə tərtib olunur. Nüsxələrin biri Universitetdə, digəri isə Nazirlikdə saxlanılır.

3.5. Bu Müqavilə imzalandığı gündən qüvvəyə minir.

## 4. Tərəflərin rekvizitləri və imzaları

| Naxçıvan Dövlət Universiteti | Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi |
| --- | --- |
| Naxçıvan şəhəri, Universitet şəhərciyi, AZ7012 | Naxçıvan şəhəri, AZ 7000, Əziz Əliyev küçəsi |
| Tədris və tərbiyə işləri üzrə prorektor: | Aparat rəhbəri |
| vəzifəsi | vəzifəsi |
| Rəhimov Rafiq Vilayət oğlu | Məmmədov Vüsal Ələkbər oğlu |
| soyadı, adı, atasının adı | soyadı, adı, atasının adı |
| imza | imza |

AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

NAXÇIVAN MUXTAR RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ